## SƏNƏTŞÜNASLIQ

**Adil Sadıxov**
**Azərbaycan Milli Elmlər Akademiyası**
**E-mail:** ilqarsv@mail.ru

# Mədəniyyət şəxsiyyətin fəaliyyətinin məhsuludur

**Xülasə:** Məqalədə şəxsiyyətin fəaliyyətinin mədəniyyətə göstərdiyi təsirdən danışılır. Göstərilir ki, mədəniyyət insan həyatının bütün sahələri ilə bilavasitə bağlı olan çox mürəkkəb və zəngin maddi və mənəvi hadisələr kompleksini əhatə edir. Mədəniyyət özünün canlı universal subyekti olan insandan kənarda mövcud deyildir. Mədəniyyət insan fəaliyyətinin ən mühüm keyfiyyət xarakteristikasıdır.

**Açar sözlər:** mədəniyyət, şəxsiyyət, mənəviyyat, cəmiyyət, tərəqqi, fəaliyyət, yaradıcılıq.

Mədəniyyət özünün təkmilləşməsi prosesində mürəkkəb və dinamik bir yol keçir. Bu inkişafın əsasında isə şübhəsiz, insan və şəxsiyyətin fəaliyyəti durur. Çünki, məhz insan bu çətin və mürəkkəb prosesdə mədəni sərvətləri yaradan əsas mənbə, eyni zamanda onun ali mənası və məqsədi olur, həm də hərtərəfli inkişaf zamanı məhz şəxsiyyətin qabiliyyəti, istedadı və fəaliyyəti mənəvi aləmin zənginləşməsində həlledici rol oynayır.

Elmi-texniki inqilabın sürətlə inkişafı, bir tərəfdən, mədəniyyətin bütün sahələrinə göstərdiyi güclü təsir həm intellektuallaşmaya, həm də onun vasitəsilə subyektin gündəlik fəaliyyətinin bütün tərəflərinin dərinləşməsinə və intensivləşdirilməsinə, digər tərəfdən isə, mədəniyyət sərvətlərinin yayılmasına, çoxalmasına səbəb olur. Mədəniyyətin yalnız insan fəaliyyətinin nəticəsi kimi deyil, yaradıcı-dəyişdirici proses kimi başa düşülməsi özündə həmin fəaliyyətin texnoloji əlamətlərinin olmasını təsdiq edir. Mədəniyyətin lazımlılığını, böyük əhəmiyyətini nəzərə almadan, onun sivilizasiyanın, cəmiyyətin və şəxsiyyətin inkişafında məhsuldar xarakterliyini, akseoloji funksiyasını, fəal rolunu anlamaq olduqca çətindir.

Mədəniyyət hər bir ictimai-tarixi dövrdə öz xüsusi formasında, həmin dövrün xarakterik cəhətlərinə uyğun şəkildə təzahür edir. Mədəniyyətin özü ictimai quruluşa uyğun olaraq tez-tez dəyişir. Hər bir dövrün istehsal üsuluna uyğun olan mənəvi dəyərlər, bütövlükdə isə ümumi mədəniyyət formalaşır.

Müasir dövrdə elmi-texniki tərəqqinin təsiri mədəniyyətin bütün sahələrində özünü biruzə verir. Mədəniyyət müəssisələrinin iş fəaliyyətini texniki vasitələrdən ayrı təsəvvür etmək mümkün deyildir. Milli adət və ənənələrin, hətta dini ayin və mərasimlərin icra olunması prosesində də texniki vasitələrin təsiri ilə böyük modernləşmə aparılmışdır. Unutmaq olmaz ki, mədəniyyətin incilərindən olan din təkcə etiqad, inam, dünyagörüşü deyildir. O, hər şeydən əvvəl, insan həyatının bütün fəaliyyəti və sahələri ilə bilavasitə bağlı olan çox mürəkkəb və zəngin maddi və mənəvi hadisələr kompleksini əhatə edir, eyni zamanda, həyat tərzi olmaq etibarilə konkret şəraitdə sosial-psixoloji hadisə kimi təzahür edir. Yadda saxlamaq lazımdır ki, dini baxış və təlimlərdə yüksək mənəvi əxlaqi qayə və amallar təbliğ olunmaqla yanaşı, insanların elmə, biliyə yiyələnmək sahəsindəki fəaliyyətlərinə effektiv fayda verir, deməli ümumən mədəniyyətin inkişafına təkan verərək, mənəvi dəyərlərə, əxlaqi sərvətlərə, o cümlədən gözəlliyə, təmizliyə, insani paklığa xüsusi diqqət verilir.

Qeyd olunmalıdır ki, siyasi, iqtisadi, dini və digər sferalar kimi mədəniyyət də bütöv sosial sistem olan cəmiyyətin komponentidir. Həmin komponentlər sistemində mədəniyyət özünəməxsusluğu ilə fərqlənir. Şəxsiyyətin fəaliyyəti mədəniyyətin ən zəruri ünsürüdür, çünki bu fəaliyyət mədəniyyəti sərvətlərin istehsalı prosesi kimi mənalandırır. Mədəniyyət aləminin bütövlüyü, universallığı ilə müəyyən olunur. Mədəniyyət özünün canlı universal subyekti olan insandan kəndarda mövcud deyildir. Adamların mədəni inkişaf meyarını mədəni həyatın subyekti olmaq etibarilə sosial subyektin inkişaf ölçüsü kimi müəyyənləşdirmək olar. Eyni zamanda mədəniyyət öz əxlaqi dəyərləri ilə insan həyatının, fəaliyyətinin zəruri şərti kimi çıxış edərək, mənəvi mədəniyyətin çox güclü amilinə çevrilir.

Şəxsiyyətin yüksək mənəviliyi, yaradıcılıq səyləri, ictimai həyatın bütün sferalarında fəallığı nəinki cəmiyyətlə bağlıdır və eləcə də cəmiyyətin özü üçün lazımdır. Bu mənada sivil, demokratik cəmiyyətlərdə vətəndaşların yaradıcılıq azadlığı təmin olunur. Heç də təsadüfi deyil ki, Azərbaycan Respublikasının Konstitusiyasında da bu məsələ qanunvericilikdə təsbit olunmuşdur. Konstitusiyanın 5-ci maddəsində deyilir: "Dövlət ədəbi-bədii, elmi-texniki və başqa yaradıcılıq növlərinin azad həyata keçirilməsinə təminat verir".

Qeyd olunmalıdır ki, müasir dövrdə insanın həyat və fəaliyyəti ümumiyyətlə texnikiləşdirilmişdir. Bu, öz növbəsində istehsalın intensivləşdirilməsinə, əmək məhsuldarlığının yüksəlməsinə, insanların gündəlik davranışlarında praqmatizm və rasionalizmlə müşayiət olunan əməllərin, cəhdlərin, zövqlərin daha geniş ölçülü standartlaşdırılmasına doğru aparır. Sosial qaydaların, tiplərin təhlili göstərir ki, insan bütün şeylərin, maddi və mənəvi xarakterli proseslərin ölçüsü kimi çıxış etməklə bütövlükdə mədəniyyətin universal komponenti səviyyəsinə yüksəlir. Mədəniyyətin bütün

mənəvi sferalarının siyasi, əxlaqi, estetik, dini və digər sahələrinin təşəkkülü, inkişafı, mövcudluğu şəxsiyyətin fəaliyyəti prosesindən kənarda təsəvvürə sığan deyil. Mədəniyyət insanın şüurlu-yaradıcı fəaliyyətində reallaşmaqla, təcəssüm olunmaqla özündə mədəniyyət konkretliyini (maddiliyi) ehtiva edir. Bu isə sosial təcrübəni, üsulları və fəaliyyət proqramını sonrakı nəsillərə bəxş etmək imkanı yaradır. İndiki şəraitdə hər bir insanın daim öz bilik və təcrübəsini zənginləşdirilməsi, cəmiyyət üçün vacib olan peşə və fəaliyyət növlərinə yiyələnməsi, yaradıcı sosial fəallığa istiqamətlənən qabiliyyətini inkişaf etdirilməsi zəruridir. Son nəticədə cəmiyyətin tələb etdiyi, ona lazım olan şəxsiyyət səviyyəsinə yüksəlməyə cəhd edilməlidir. Çünki şəxsiyyətin sosial ləyaqətli varlıq kimi formalaşması yalnız və sadəcə olaraq onun özü üçün deyil, eləcə də cəmiyyətə lazımdır.

Müasir texniki nailiyyətlər və kəşflər şəxsiyyətin fəaliyyətinin artırılmasına, onun fərdi xüsusiyyətləri və qabiliyyətlərinin aşkar edilməsi və inkişafı üçün geniş imkanlar yaradır.

Şübhəsiz ki, müasir elmi-texniki tərəqqi incəsənət və ya mənəviyyat sahəsindəki tərəqqidən daha yüksək sürətlə gedir. Elmi-texniki nailiyyətlər fərdin gündəlik həyatına daha çox hiss ediləcək dərəcədə təsir edir, nəinki incəsənət sərvətləri. İncəsənətin texnoloji və humanitar tərəflərinin qarşılıqlı təsirindən nəinki inteqrasion, eyni zamanda divergnesion proseslər də baş verir. Bu elm və incəsənət kimi fərdin müxtəlif sahələrdə yaradıcılıq imkanlarının təzahür etdirilməsinin məqsəd və vasitələrinin müxtəlifliyi ilə, həmçinin hər iki fəaliyyət növünün nəzəri konsepsiyalar, formullar, qanunlar və sairələrin son nəticələri ilə müəyyən olunur.

Şəxsiyyəti mənəvi-sivil fəaliyyətinin subyekti kimi təhlil edərkən mühüm bir problemin diqqətdən yayınması tədqiqatçılıq fəaliyyəti baxımından düzgün olmazdı. Unutmaq olmaz ki, fəaliyyətin və ictimai münasibətlərin subyekti kimi səciyyələnməklə şəxsiyyət öz tələbatının təmin olunması və mənafeyinin reallaşması zərurətindən çıxış edir. Şəxsiyyətin tələbatının ödənilməsi və mənafeyinin reallaşması onun sosial fəallığının ən mühüm sövqedici qüvvəsidir. Beləliklə, şəxsiyyətin tələbatı onun bu və ya digər fəaliyyətinin zəruriliyini ifadə edir və həmin fəaliyyətə (istehlakmı, yaradıcı və s.) daxili təhrikedici hisslər oyadır. Eləcə də onun mənafeyi mövcud şəraitdə tələbatının ödənilməsinin optimal yollarını və üsullarını ifadə edir. Bu optimallıq əksini belə bir cəhətdə tapır ki, şəxsiyyət nəinki öz tələbatını təmin edir, eyni zamanda cəmiyyətdəki mövqeyini möhkəmləndirir. Müxtəlif şəraitdə fəaliyyət göstərməklə şəxsiyyət başa düşməlidir ki, onun mənafeyinə obyektiv olaraq nə uyğun gəlir və ya ona zidd olan nədir. Bunu dərk etmək həmişə asan olmur və ya şəraitin özü həddən artıq mürəkkəb nəzərə çarpır. Bunlar isə mövcud ictimai münasibətlərdən təşəkkül tapır ki, o da mənafe kimi səciyyələnir. Digər

tərəfdən şəxsiyyətin fəaliyyəti insani ünsiyyət vasitələri, eyni zamanda mədəni sərvətlərin yayılması vasitələri olan radio, televiziya, internet, kompüter sistemi, radar qurğuları, lazer rabitəsi və elmi-texniki inqilabın digər nəticələri ilə üzvü şəkildə bağlıdır. Televiziya və internetin kəşf olunması, insanın həyatına geniş miqyaslı tətbiq edilməsi nəinki ümumi kommunikativ sistemin imkanlarını genişləndirmiş, həmçinin ona keyfiyyətcə yeni əlamətlər və cəhdlər əlavə etmişdir. Kommunikativ sistemin kütləvi kanalların insanlara mədəni təsiri vasitlərinin geniş əhatəliyini, daha səmərəli olmasını etiraf etməyə əsaslanmaqla, insanların fəaliyyəti nəticəsində mədəni sərvətlərin istehsalı və təkrar istehsalı prosesində texnikiləşdirilmənin əhəmiyyətini və rolunu danmaq olmaz. Mədəni sərvətlərin yenidən yaradılması prosesinin texnikiləşdirilməsinə görə bədii əsərlərin yaradılması və onların kütləvi şəkildə yayılması qavranılması arasındakı vaxt xeyli dərəcədə qısaldılmışdır.

Məlumdur ki, insanın fəaliyyəti müxtəlif sferalara malikdir. XX əsrin görkəmli mütəfəkkiri E.Kassiter qeyd edirdi ki, insanın ən başlıca səciyyəvi xüsusiyyətləri, fərqləndirici əlaməti onun mücərrəd və ya fiziki təbiəti deyil, məhz fəaliyyətidir. Kassiter insanın fəaliyyət sahələrinə hər şeydən əvvəl dili, mifi, dini incəsənəti, elmi, tarixi aid edirdi. Deməli, insanın özünü və mədəniyyət-sivilizasiya sisteminin onun fəaliyyətinin məhsulu olduğunu əhatəli başa düşmək üçün həmin fəaliyyət növlərinin hər birinin fundamental strukturunin aydınlaşdırılması olduqca vacibdir, eləcə də fəaliyyət üzvü bütövlük də kəsb edən hadisə kimi dərk olunmalıdır. Məsələn: elmi və texniki yeniliklərin təsiri altında mədəniyyətin vahid inkişafının maddi və mənəvi tərəflərinin qarşılıqlı təsiti və inteqrasiyası proseslərinin kəskin surətdə güclənməsi nəticəsində insan fəaliyyətinin növlərindən biri olan bədii yaradıcılığın mühəndis-konstruktor yaradıcılığı onları üzvi surətlə birləşdirən fəaliyyətin inteqrativ formalarının meydana gəlməsinə, onların sürətlə inkişafına səbəb olmuşdur.

Maddi istehsalın şəxsi komponentində zəhmətkeş insanda, onun fəaliyyətində və idarəetmə mədəniyyətində (iqtisadi, mənəvi, peşə, siyasi dünyagörüşü və s.) radikal keyfiyyət dəyişikliləri nəticəsində: istehsalda, təhsildə, elmi axtarışlarda insan amilinin yeri, rolu və əhəmiyyəti olduqca artmışdır. Daha çox təkmilləşdirilmiş, səmərəli maşın və texnologiyalara yiyələnmiş əməkçi insan, şəxsiyyət nəhəng istehsal müəssisələrini idarə etməyə qadir və hazırdır. Çox zaman bir şəxsin hərəkətindən onun tərbiyəsi, mənəvi aləminin zənginliyi, ümimi səviyyəsi və ya yoxsulluğundan, mənəvi inkişafı və mənəvi tərbiyəviliyi dərəcəsindən, peşə hazırlığı və səriştəliyindən, yaradıcılıq imkanlarından və həmin imkanları həyata keçirmək bacarığından çox şey asılıdır. Deyilənlər həm insanlardan öz gücünü və imkanlarını səfərbər edib

mübariz olmağı, həm də onların səbr və iradi keyfiyyətləri ilə üzvi şəkildə bağlıdır.

İndiki "informasiya sənayesi" dövründə şəxsiyyətin fəaliyyətində və yaradıcılığında yeni aspektlər təzahür edir. Həmin aspektlərdən biri şəxsiyyətin fəaliyyətinə elmi-texniki elitanın, cəmiyyətin özünün inkişaf səviyyəsinin qabaqcıl zehni adamlar elitasının özünəməxsus təsiridir və bu da özlüyündə müəyyən əhəmiyyətə malikdir. Müasir informasiya cəmiyyətində şəxsiyyətin məruz qaldığı təsir aspektlərindən digəri əxlaqi dəyərlər və normativlər aspektidir. Hazırda adamların, xüsusilə gənclərin fəaliyyətində əxlaqi dəyərlərdən olan bədii təsir vasitələri, ədəbiyyat və incəsənət xüsusi rol oynayır. Çünki incəsənət daha əyani, obrazlı anlaşıqlı və konkretdir. Mədəni təsirin məzmunluğunda, istiqamət və zənginliyində əvvəllərdə olduğu kimi müasir dövrdə də həlledici əhəmiyyəti məhz incəsənət əsərlərinin bədii, estetik, mənəvi dəyərləri durur, onların kompozisiyası, süjet xətti, obrazları, ideyaları insanlarda bəşəri başlanğıcları yüksəltməli, onun mənəvi aləmini, mədəniyyətini zənginləşdirilməlidir. Əlbəttə, bu sahədə islamın, onun adət və ənənələrinin qorunub saxlanılmasının, onun bədii-emosional vasitələrindən istifadə etməsinin əhəmiyyəti heç də az deyildir. İslam incəsənətin güclü emosional təsirini nəzərə alaraq öz fəaliyyətində buna daim yüksək qiymət vermiş, insanın mənəvi təkamülündə, bədii-estetik tərbiyəsində, mənalı fəaliyyətində onun əhəmiyyətini dəfələrlə qeyd etmişdir. Öz fəaliyyətində islam bədii-emosional vasitələrin gücündən, xüsusilə bədii qiraət, musiqi və poeziyadan daha çox istifadə edir. Bu isə nəinki məscid və başqa ibadət evlərinin, hətta dini kitabların bəddi tərtibatı, Quranın bir çox surə və ayələrinin avazla, xalqın sevdiyi mahnı ahəngində ifa edilməsi, ölkəmizdə isə ən çox xalqın hiss və arzularına yaxın motivlərdən, klassik musiqidən, xüsusilə muğamdan, kütləvi mahnı janrı və s. istifadə etməsi də təsir edir. Şübhəsiz, bu sahədə incəsənəti heç nə əvəz edə bilməz.

Unudulmamalıdır ki, hissi zənginlik insanın bütün psixi aparatının hissi qavrama qabiliyyətinin, yaradıcı təxəyyülünün, ümumiyyətlə, onun bütün mənəvi dünyasının hərəkət mexanizmidir. İncəsənət isə məhz insanın mənəvi dünyasının, onun daxili mexanizminin ifadəsi və tərənnümüdür.

Son dövrlərdə respublikamızda dinə güclü aludəçilik meylləri hiss edilir. Belə bir vəziyyətin ölkə ictimaiyyəti arasında narahatlıq yaratdığını nəzərə alaraq bununla əlaqədar bəzi məsələlərə diqqət yetirmək lazım gəlir. Ölkəmizdə islamın nüfuzunun xeyli güclənməsi, hətta bəzi dini təriqət və icmaların sayının artması heç şübhəsiz müstəqillik qazanmağımızın respublikada həyata keçirilən demokratik təqiblərin, mətbuat azadlığının nəticəsidir. Əlbəttə, bu xalqımızın öz keçmişinə, tarixi yaddaşına, onun adət və ənənələrinə, kökünə bir növ

qayıtmaqdır, onun yenidən canlanmasıdır. Deyilmlər müsbət haldır, bunu danmaq olmaz.

Cəmiyyətin bütün mənəvi həyat sahələrində ümumi qanunauyğunluq təzahür etməkdədir: insanın öz yaradıcılıq keyfiyyətinin subyekti kimi rolunun artması, onun mənəvi aləminin zənginliyinin daha çox hiss olunmasının ifadəsidir. Bu qanunauyğunluq daxili həyatın fəallığından, milyonlarla adamların tələbatlarının artmasından, onlar tərəfindən mədəniyyətin müxtəlif sahələri və növləri vasitəsilə ətraf aləmin mənəvi-praktik surətdə mənimsənilməsindən, ölkələrin onlara yaratdığı şəraitdən və daimi tərəqqi və inkişafından həm ayrılmaz, həm də asılıdır. Həmin dinamik prosesdə, şəxsiyyətin bu prosesdə fəaliyyətində elm və incəsənət mərkəzdən qaçan qüvvə kimi deyil, insanın mənəvi inkişafının və özünü inkişafın, özünün insanlıq mahiyyətini tarixən bərqərar edən yeni, daha yüksək səviyyə və zirvəyə qaldıran mərkəzə qaçan qüvvə kimi ifadə edir və göstərir.

Müasir dövr elmi biliyin misilsiz inkişafı ilə səciyyələnir. İctimai-siyasi tərəqqinin hazırki mərhələsində şəxsiyyətin fəaliyyətinin əsas hərəkətverici qüvvələrindən biri də məhz elmi-texniki nailiyyətlərdir. Elmi-texniki tərəqqinin daha da sürətlənməsi cəmiyyətin ictimai-siyasi həyatında, mədəniyyətin tərəqqisində, onun mənəvi təkümülündə getdikcə daha yeni, əsaslı keyfiyyət dəyişmələrinə səbəb olur. Yeni dövr elmin təntənəsi dövrüdür. Təbiətin "sirli qüvvələrinə" nüfuz edən elm hər cür mistik təsəvvürləri aradan qaldırır. Elmi biliklərlə silahlanan insanlar hazırda özlərinin fəaliyyətinin nəticələrini, hadisələrin gedişini qabaqcadan görmək imkanı əldə edirlər. Hazırda elm və texnikanın inkişafı ilə əlaqədar olaraq elmi-texniki məlumatlar, informasiya sistemi daha da genişlənir. Yeni dövrün tələblərinə uyğun olaraq ictimai elmlərlə təbiət elmlərinin qarşılıqlı əlaqəsi daha da möhkəmlənir. Elm daima inkişaf edir, daim yeni-yeni nəticələrlə zənginləşir, alimlərin yaratdıqları fərziyyələr sonralar dəqiqləşir, sübuta yetirirlir, təsdiq edilir. Şəxsiyyətin elmi fəaliyyətinin və yaradıcılığının bu xüsusiyyəti onun heç də zəifliyinin nəticəsi olmayıb, onun iradəsini və gücünü ifadə edir. Fəaliyyət insana xas olan aktivliyin xüsusi forması və öz məzmunu etibarilə xarici aləmin məqsədyönlü dəyişdirilməsi kimi göstərilir. Yəni fəaliyyətdə olan insan həm xarici aləmi, həm də özünü dəyişdirmək qüdrətinə malikdir.

## Ədəbiyyat:

1. Aslanov R.Qloballaşma və mədəni müxtəliflik. Bakı. "Elm", 2004
2. Xəlilov İ.İ. Sivilizasiyalararası dialoq. Bakı. "Adiloğlu", 2009
3. Xəlilov S. Mənəviyyat fəlsəfəsi. Bakı. 2007.
4. Mustafayef Q. Mənəvi tələbatın inkişaf dialektikası. Bakı. 1989

5. Müasir Azərbaycan mədəniyyəti: Problemlər və perspektivlər (elmi məqalələr toplusu) Bakı. 2007

## Культура - продукт деятельности личности

**Резюме**

В статье говорится о влиянии деятельности личности на культуру. Показывается, что культура непосредственно связанная со всеми сферами человеческой жизни, охватывая очень сложные и богатые комплексы материально-духовных явлений. Культура не может существовать вне человека- своего живого и универсального субъекта. Культура самая важная качественная характеристика человеческой деятельности.

**Ключевые слова:** Культура, личность, духовность, общество, прогресс, деятельность, творчество.

## Culture is a product of personality's activity

**Summary**

The article reveals the influence of personality's activity to the culture. It is shown that the culture connected to the all fields of human's life covering very complicated and rich complexes of material and spiritual events. The culture cannot exist outside the human – its alive and universal subject. Culture is the most important quality feature of the human activity.

**Key words:** culture, personality, spirituality, society, progress, activity, creation.